Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 20 – 25 yanvar 2025-ci il •**

**“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” İşçi qrupunun iclası**

**25.01.2025**

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 13.02.2024-cü tarixində təsdiq olunub.

**fed.az**

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın iclası keçirilib**



Mərkəzi Bankda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun iclası keçirilib.
FED.az xəbər verir ki, Azərbaycan Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev Dünya Bankı Qrupunun “Əlverişli Biznes Mühiti” layihəsinin “Maliyyə xidmətləri” indikatoru ilə bağlı təsdiq edilmiş 2024-cü il üzrə Yol xəritəsi və işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı çərçivəsində il ərzində görülmüş işlər barədə məlumat verib.
İclas çərçivəsində Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun yeni rəhbəri Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədr müavini Toğrul Əliyev təqdim edilib.
İclasda, həmçinin 2025-ci il üzə Fəaliyyət Planının və “Maliyyə xidmətləri” indikatoru ilə bağlı bu il üzrə Yol xəritəsinin layihələri, habelə “Bussiness Ready” hesabatının

“Maliyyə xidmətləri” indikatoru üzrə cavablandırılmış sorğunun nəticələri üzrə müzakirələr aparılıb.

**Mənbə:**

https://fed.az/az/diger/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-iclasi-kecirilib-221423

## Digər saytlar və portallar

1. https://e-cbar.az/News/Info/6516348
2. https://report.az/maliyye-xeberleri/maliyye-bazarlarinin-inkisafi-ve-kreditlerin-elcatanligi-isci-qrupunun-rehberi-deyisib/
3. https://azertag.az/xeber/biznes_muhiti_ve_beynelxalq_reytinqler_uzre_komissiyanin_iclasi_kechirilib_video-3388135
4. https://banker.az/m%C9%99rk%C9%99zi-bankin-s%C9%99dr-muavinin%C9%99-yeni-v%C9%99zif%C9%99-verilib/
5. https://azerbaijan-news.az/az/posts/detail/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-iclasi-kecirilib-1737730298/350875
6. https://apa.az/maliyye/maliyye-bazarlarinin-elcatanligi-ve-kreditlerin-elcatanligi-isci-qrupuna-yeni-rehber-secilib-885879
7. https://sizinxeber.az/economy/maliyy/64732-maliyy-bazarlarnn-latanl-v-kreditlrin-latanl-ii-qrupuna-yeni-rhbr-seilib.html
8. https://www.financetime.az/news/news-view.php?id=38372
9. https://bbn.az/maliyy%C9%99-bazarlarinin-inkisafi-v%C9%99-kreditl%C9%99rin-%C9%99lcatanligi-isci-qrupunun-iclasi-keciril%C9%99c%C9%99k-2/amp/
10. https://valyuta.az/az/bank/63755/merkezi-bankin-sedr-muavinine-yeni-vezife-verildi/
11. https://olke.az/dunya/409473/
12. https://konkret.az/togrul-eliyeve-yeni-vezife-verildi/
13. https://gundem.az/az/gundem/110554/
14. https://fed.az/az/diger/quotmaliyye-bazarlarinin-elcatanligi-ve-kreditlerin-elcatanligiquot-isci-qrupuna-yeni-rehber-secilib-221375
15. https://bakivaxti.az/az/posts/detail/togrul-eliyeve-yuksek-vezife-verildi-1737716250
16. https://bizim.media/az/cemiyyet/231538/togrul-liyev-yeni-vezifeye-tyn-olundu/
17. https://globalinfo.az/togrul-eliyeve-yeni-vezife-verildi/
18. https://news.milli.az/country/1259487.html
19. https://olke.az/dunya/409473/
20. https://axar.az/news/toplum/939240.html
21. https://sia.az/az/news/economy/1224734.html
22. https://crossmedia.az/az/article/14132
23. https://qarabaginfo.az/karusel/83325-maliyy-bazarlarnn-lcatanl-v-kreditlrin-lcatanl-ici-qrupuna-yeni-rhbr-secilib.html

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 13.02.2024-cü tarixində təsdiq olunub.

## “Əmtəə bazarının səmərəliliyi və rəqabət” Işçi qrupunun fəaliyyəti

**25.01.2025**

competition.gov.az

## Dövlət Xidməti və "Caspian Energy Club"un birgə təşkilatçılığı ilə “B2G Forumu” keçirilib




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət İşçi qrupunun fəaliyyəti çərçivəsində təşkil olunan tədbir zamanı dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, o cümlədən rəqabət və dövlət satınalmaları sahəsində həyata keçirilən institusional islahatlar barədə müzakirələr aparılıb.
Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və “Caspian Energy Club”un birgə təşkilatçılığı ilə “B2G Forumu” (Biznesdən dövlətə) keçirilib. Onlayn formatda təşkil olunan tədbirdə “Caspian Energy Club”a üzv olan və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən biznes subyektlərinin nümayəndələri iştirak edib.

“Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub

Forumda Dövlət Xidmətinin rəis müavini Cəfər Babayev, Dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri Əhməd Həsənov və “Caspian Energy Club”ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyevin çıxışları dinlənilib.

Çıxışlar zamanı dövlət və özəl sektor arasında etibarlı və səmərəli əlaqələrin qurulması, rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı və sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında rəqabət qanunvericiliyinin tətbiqinin önəmi vurğulanıb. Bundan əlavə, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, müvafiq sahənin elektronlaşdırılması və daha çox sayda sahibkarlıq subyektinin satınalmalarda iştirakının təmin edilməsi istiqamətində atılan addımlar barədə məlumat verilib. Habelə dövlət və özəl sektor arasında effektiv kommunikasiya mühitinin formalalaşmasında, biznes subyektləri ilə sağlam əməkdaşlıq əlaqələrinin inkişafında Dövlət Xidmətinin həyata keçirdiyi tədbirlər qeyd olunub.

Sonda tədbir iştirakçılarının dövlət-özəl tərəfdaşlığı istiqamətində rəy və təklifləri dinlənilib, iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Mənbə:**

https://competition.gov.az/az/post/1007/dovlet-xidmeti-ve-caspian-energy-clubun-birge-teskilatciligi-ile-b2g-forumu-kecirilib

**Digər saytlar və portallar**

1. https://xalqqazeti.az/az/last-news/211940
2. https://olaylar.az/news/iqtisadiyyat/585041
3. https://vergiler.az/news/economy/33350.html
4. https://azadmedia.az/iqtisadiyyat/110222-dovlt-xidmti-v-caspian-energy-clubun-birg-tkilatcl-il-b2g-forumu-kecirilib.html

“Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub

## “Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti

**23.01.2025**

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

report.az

**Eyyub Kərimli: “Azərbaycan biznesin qeydiyyatı prosesi üzrə ən qabaqcıl təcrübələrdən birinə malikdir”**



Hazırda Azərbaycan biznesin qeydiyyatı prosesində dünyada ən qabaqcıl təcrübələrdən birinə malikdir. Bunu “Report”a açıqlamasında İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Eyyub Kərimli bildirib.

Ekspertin sözlərinə görə, 2024-cü ildə bu sahədə bir sıra mühüm yeniliklər həyata keçirilib: “Ən əhəmiyyətli yeniliklərdən biri xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi və MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır. Bu dəyişikliklər Azərbaycanda biznesin təsis edilməsi prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində görülən işlərin bir hissəsidir”.

O bildirib ki, hazırda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən və Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi “Biznesə daxilolma” İşçi qrupu biznes qeydiyyatının daha da təkmilləşdirilməsi üçün intensiv iş aparır:

“Son bir ildə bu işçi qrupun təşəbbüsü ilə biznes qeydiyyatını sadələşdirmək məqsədilə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna, eləcə də Əmək, Mülki və İnzibati Xətalar məcəllələrinə

dəyişikliklər edilib. Bu dəyişikliklər nəticəsində kommersiya qurumlarının dövlət qeydiyyatı üzrə qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılıb və xarici investisiyalı MMC-lərin qeydiyyat prosedurları sadələşdirilib. Bu, təkcə investisiya mühitinin yaxşılaşdırılmasına deyil, həm də Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin güclənməsinə müsbət təsir göstərəcək".

E.Kərimli əlavə edib ki, 2024-cü ilin digər mühüm yeniliklərindən biri MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınmasıdır:

"Bu yenilik biznes sahibləri üçün vaxt itkisini əhəmiyyətli dərəcədə azaldır. Əvvəllər yalnız yerli investisiyalı kommersiya hüquqi şəxslərin ilkin qeydiyyatı elektron qaydada aparılırdı. Yeni prosedurlar nəticəsində isə həm yerli, həm də xarici investisiyalı MMC-lər təsis sənədlərində edilmiş dəyişikliklərin elektron qeydiyyatı üçün ərizə ilə müraciət edə bilirlər".

Ekspertin fikrincə, 2025-ci ildə bu sahədə yeni islahatlar gözlənilir: "Kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və müvafiq reyestrin yaradılması planlaşdırılır. Bu prosesə dair normativ sənədlər hazırlanır və qüvvəyə mindikdən sonra lazımi texniki imkanlar yaradılacaq. Nəticədə, Azərbaycanın biznes qeydiyyatı sahəsində qazandığı uğurlar onu dünya miqyasında ən qabaqcıl ölkələrdən biri kimi mövqeyini qorumağa imkan verəcək".

"Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

**Mənbə:**

https://report.az/biznes-xeberleri/eyyub-kerimli-azerbaycan-biznesin-qeydiyyati-prosesi-uzre-en-qabaqcil-tecrubelerden-birine-malikdir/

**Digər saytlar və portallar**

1. https://xalqqazeti.az/az/last-news/211941
2. https://www.azerbaycan24.com/eyyub-kerimli-azerbaycan-biznesin-qeydiyyati-prosesi-uzre-en-qabaqcil-tecrubelerden-birine-malikdir/
3. https://sizinxeber.az/economy/biznes/64408-eyyub-krimli-azrbaycan-biznesin-qeydiyyat-prosesi-zr-n-qabaqcl-tcrblrdn-birin-malikdir.html
4. https://far.az/19070-eyyub-kerimli-azerbaycan-biznesin-qeydiyyati-prosesi-uzre-en-qabaqcil-tecrubelerden-birine-malikdir.html
5. https://vergiler.az/news/economy/33335.html

## Sahibkarlıq fəaliyyəti üçün yeni imkanlar: biznesin qeydiyyatı təkmilləşdirilir

2024-cü ildə Azərbaycanda 126,3 milyard manatlıq və yaxud 2023-cü illə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3 faiz, qeyri-neft-qaz sektorunda isə 6,2 faiz artıb. Ötən il əhalinin hər nəfərinə düşən ÜDM-in dəyəri 12.382,5 manat olub. ÜDM artımını təmin edən əsas amillərdən biri isə əlverişli biznes mühitinin yaradılmasıdır. Sahibkarlıq fəaliyyəti üçün geniş imkanların yaradıldığı şəraitdə iqtisadi aktivlik artır ki, bu da iqtisadi artımda özünü büruzə verir.

***Müasir biznes mühitinin dəyişən tələbləri***

Müasir biznes mühiti sürətli texnoloji dəyişikliklər, qlobal iqtisadi və siyasi qeyri-sabitlik, ekoloji problemlər, müştəri gözləntiləri və digər mühüm çağırışlarla üzləşib. Bu çağırışlara cavab vermək üçün bizneslər çevik, innovativ, texnologiyaya əsaslanan və müştəri mərkəzli yanaşmalar tətbiq etməli, həmçinin davamlılıq və sosial məsuliyyət prinsiplərinə riayət etməlidirlər. Bu dəyişikliklər biznes fəaliyyətini və strategiyalarını daim yeniləməyi tələb etdiyindən biznes mühitinə təsir edən yanaşmaları da təkmilləşdirməyi şərtləndirir. Məhz bu məqsədlə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və bu prioritetlərə söykənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda sahibkarlıq fəaliyyəti üzrə tənzimləmələrin optimallaşdırılması, resurslara bərabər çıxış imkanlarının yaradılması, özəl sektorun fəaliyyətinin aktiv stimullaşdırılması kimi tədbirləri genişləndirmək nəzərdə tutulub.

***Vergi təşviqləri və stimullaşdırıcı islahatlar***

Sahibkarlıq fəaliyyətinin çevik tənzimlənməsi mexanizminin güclənməsinə təsir edən əsas faktorlardan biri də vergi siyasətidir. Son illər ölkəmizin vergi sistemi iqtisadiyyatın tənzimləyici drayverlərinin hərəkətə gətirilməsində fəal iştirak edir. Bu istiqamətdə vergi qanunvericiliyinə ardıcıl olaraq mühüm dəyişikliklər edilir. 2025-ci ildən qüvvəyə minmiş dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və invesitisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizmi və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasından

> "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

ibarətdir. Bu hədəflər Azərbaycanın dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün güclü potensial ehtiva edir. Təşviqlərə bərpaolunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən layihələrə investisiya qoyuluşunu stimullaşdırmaq, uzunmüddətli dövrdə dövlətin maliyyə yükünü azaltmaq, istehlakçılar üçün tariflərin aşağı salınması və daxili istehsalın dəstəklənməsi məqsədilə vergi azadolmaları, mədəniyyət sahəsi üzrə vergi güzəştlərinin verilməsi kimi tədbirlər daxildir.

Bundan başqa, biznes mühitinin cəlbediciliyini artırmaq üçün də bir sıra addımlar atılıb və biznesin qeydiyyatı sahəsində bir sıra əhəmiyyətli yeniliklər edilib. Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Biznesə daxilolma" İşçi qrupu biznes qeydiyyatının effektivliyinin daha da artırılması üçün müvafiq Yol Xəritəsi çərçivəsində biznes subyektlərinin ehtiyaclarına uyğun olaraq müvafiq tənzimləmələr həyata keçirilib. "Biznesə daxilolma" sahəsində həyata keçirilmiş 2022-2023-cü illər üzrə Yol Xəritəsi çərçivəsində kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı təkmilləşdirilib. Rübdə bir dəfə məlumat dəyişikliyinin qeydiyyata alınması üçün müraciətlərin edilməsinin zəruriliyinə dair məlumat xarakterli bildirişin kommersiya qurumlarının elektron kabinetinə göndərilməsi xidməti aktivləşdirilib. Həmçinin, lisenziya və ya icazə tələb olunan fəaliyyət növləri seçildikdə, kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi başa çatdıqdan sonra "Lisenziyalar və icazələr" portalına keçid imkanının yaradılması da təmin edilib.

2024-cü ildə bu sahədə daha bir mühüm addım yerli və xarici investisiyalı MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanının yaradılması oldu. Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanı biznesin vaxta qənaət etməsinə şərait yaradır. Buna qədər isə yalnız yerli investisiyalı kommersiya hüquqi şəxslərin ilkin qeydiyyatı ilə bağlı prosedurlar elektron qaydada həyata keçirilirdi.

Bütün bunlar öz müsbət nəticələrini qeydiyyata alınan şirkətlərin sayındakı artımda da büruzə verir. 2025-ci ilin yanvar ayının 1-nə respublika üzrə uçotda olan vergi ödəyicilərinin ümumi sayı 2024-cü ilin əvvəli ilə müqayisədə

"Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

5,4 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,1 faiz, hüquqi şəxslərin sayı 7,3 faiz artıb. 2025-ci ilin yanvar ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı 190.367 vahid təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 8 faiz çoxdur. Yerli investisiyalı MMC-lərin e-qeydiyyatda xüsusi çəkisi 94 faiz təşkil edib.

Biznesin qeydiyyatının təkmilləşdirilməsi sahəsində yeniliklər bu il də davam edəcək. Bu isə ölkəmizdə iqtisadi aktivliyin dəstəklənməsi üçün yeni stimullar formalaşdıracaq.

**Mənbə:**

https://vergiler.az/news/economy/33343.html

**Digər saytlar və portallar**

1. https://vergi.az/vergi-tesviqleri/
2. https://www.muhasibat.az/vergi-tesviqleri/
3. https://audit.az/vergi-tesviqleri/

"Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub